Şəhid ömrü

# Qanı ilə tarix yazan şəhidlərimizdən biri – kapitan Əbülfəz Rəhmətov




**Otuz bir illik ömrünün on beş ilini Vətənə, dövlətə layiqli xidmət etmiş və Ali Baş Komandan İlham Əliyev tərəfindən "Rəşadət" ordeni ilə təltif olunmuş kapitan Əbülfəz Hüseynverdi oğlu Rəhmətov 2016-cı il Aprel və 2020-ci ilin Tovuz döyüşlərində general-mayor Polad Həşimov ilə bir sırada düşmənə qarşı xüsusi igidliklə seçilmişdi. Döyüş təcrübəsinə əsaslanaraq, Vətən müharibəsində də kəşfiyyatçı və motoatıcı taborun qərargah rəisi kimi iştirak etmiş və düşmənin canlı qüvvəsinin, eləcə də döyüş texnikasının ələ keçirilməsində xüsusi şücaət göstərmişdi. Onu xatırlayan hərbçilər tabeliyində olanlara qarşı diqqətli, xeyirxah, humanist və köməksevər, mənəvi-psixoloji hazırlığa yüksək önəm verən komandir olaraq xarakterizə edirlər.**



Rəhmətov Əbülfəz Hüseynverdi oğlu 1989-cu il iyulun 3-də Lerik rayonun Anbu kəndində dünyaya göz açıb. O, 1995–2006-cı illərdə Kitabəli Həmidov adına Anbu kənd tam orta məktəbində 11 illik təhsilini başa vurduqdan sonra, həmin ildə Heydər Əliyev adına Ali Hərbi məktəbə daxil olub. 2010-cu ildə Ali Hərbi məktəbi bitirdikdəndən sonra ona leytenant hərbi rütbəsi verilib. 2010–2011-ci tədris ilində Silahlı Qüvvələrin Təlim və Tədris mərkəzində kəşfiyyatçı ixtisası üzrə kəşfiyyat taqım kursunu bitirib və 2011-ci ildə Qusar rayonunda yerləşən N saylı hərbi hissəsində kəşfiyyat taqım komandiri kimi fəaliyyətə başlayıb. O, Müdafiə nazirinin əmri ilə 2013-cü ildə baş leytenant, 2017-ci ildə kapitan hərbi rütbələrini alıb. 2010–2020-ci illərdə Qusar, Abşeron, Goranboy, Tərtər, Tovuz və Gəncədə yerləşən hərbi hissələrində kəşfiyyat taqım komandiri, kəşfiyyat bölük komandiri, kəşfiyyat məlumatları üzrə kəşfiyyat rəisinin köməkçisi, hərbi hissənin kəşfiyyat rəisi əvəzi, motoatıcı taborun qərargah rəisi, motatıcı tabor komandiri vəzifələrində işləyib.

Həmsöhbətimiz Lerik rayonu Anbu kənd tam orta məktəbinin müəllimi Gülağa Rəhmətov qəhrəmanlığı ilə adını Zəfər tariximizə yazmış qardaşının həyat yolundan danışdı. Beş müəllimin qardaşı olan şəhid kapitanın doğulduğu kəndin ilk zabiti və ilk şəhidi olmasını dedi. Valideynləri üçün əlamətdar tarixdə – toy günündə qəhrəmancasına şəhid olan kapitan Əbülfəz Rəhmətov Silahlı Qüvvələrimizin əks-həmlə ilə düşmən üzərinə hücumu zamanı döyüş səngərlərində ön sıralarda olub.

Səngər yoldaşları ilə söhbətimiz zamanı bildirdilər ki, Əbülfəz Rəhmətov kəşfiyyatçı kimi taktiki cəhətdən çox yaradıcı bir zabit idi və bu bacarıqları bizə döyüşdə çox kömək etdi: "Bu bacarığına görə müharibə başlayandan bir neçə gün sonra könüllülərlə qısamüddətli döyüş hazırlığı təlimi keçmək tapşırığı ona verildi. Ürəyincə olmasa da, indiki vaxtda bunun da döyüşən ordu üçün çox mühüm iş olduğunu başa düşürdü".

Rəhmətov Əbülfəz 2020-ci ilin sentyabr ayından etibarən başlayan 44 günlik II Qarabağ müharibəsinin ilk günündə Füzuli, Qubadlı və Cəbrayıl rayonlarının işğaldan azad edilməsi uğrunda gedən ağır döyüşlərdə fəal iştrak edib, mühüm kəşfiyyat tapşırıqlarını uğurla yerinə yetirib. O, Cəbrayıl rayonunun Hovuslu kəndi ərazisində döyüş tapşırığını yerinə yetirilməsi zamanı düşmənin canlı qüvvəsinin və hərbi texnikasının ələ keçirilməsində xüsusi xidmət göstərərkən 16 oktyabr 2020-ci il tarixdə şəhid olub. Nəşi 202 gündən sonra, 6 may 2021-ci ildə Cəbrayıl rayonunun ərazisində tapılıb. 7 may 2021-ci ildə doğulduğu Lerik rayonunun Anbu kənd qəbiristanlığında dəfn olunub.

Kapitan Əbülfəz Rəhmətov "Vətən uğrunda", İgidliyə görə", "Hərbi xidmətdə fərqləndiyinə görə", "Cəbrayılın azad olunmasına görə", "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin 95 illiyi Yubileyi", "Qusursuz xidmətə görə" 3-cü dərəcəli medalları və 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif olunub. Şəhid Kapitan Əbülfəz Rəhmətovun adının əbədiləşdirilməsi məqsədilə Lerik Rayon Cəngəmiran kənd körpələr evi uşaq baxçasına onun adı verilib.

Şəhidimizin biri qız, biri oğlan olmaqla, iki övladı yadigar qalıb.

***Rizvan FİKRƏTOĞLU,***
***"Xalq qəzeti"***